GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY

www.qurtulush.se
qurtulush.partiyasi@gmail.com

# Günaztv-ni irançı fürsətçilərdən uazaq saxlayın!

Sayın oxucu! İlk kəz olaraq illər boyunca görəvini daşıdığım ***Güney Azərbaycan Qurtuluş Partiyası***-nın sözsüzü kimi düşüncə ortaya qoyuram. Son zamanlarda İran adlanan dövlət qanadları arasında doğuya özəl olan siyasal tansiyonun yüksəlməsinə tanıqlıq edirik. Sözsüz ki, Güneyimizi də yaxından ilgiləndirən bu olayların gedişilə Günazteve də bu məsələ ilə dərəndən ilgiləncəkdir. Bu çox doğal haldır və olması da lazımdır. Hətta bunun ötəsində, Günaz Tv-nin qurucusu olan Ahməd bəyin milli düşüncəsilə tanış olduğuma dayaranaq bu TV-nin öz sözü və stratejisi olduğunun böyük önəminə inanıram.

Biz, Qurtuluş Partiyası olaraq bu qonuda heç bir önəri vermək niyyətində deyilik. Çünki, Günaztevenin bizə qarşı olan sərt tutumuyla yaxınlıq duyumundan uzaqdayıq. Ancaq bizim açımızdan Günaz TV, başlı-başına bir milli varlıq olaraq bizim də maraq dayrəmizdədir. Bu marağımızın nə zaman, nə kimi gərəksinim qarşısında obyetkiv olacağına söz vermək bizdən asılı deyildir. 20-illik millətimizin içində milli-qurtuluş savaşına qalxan bir örgütün özünü neçə saxlamasını öyrənmiş olan Qurtuluş üçün dözümlü olmaq böyük sorum deyildir. Bugünədək Qurtuluşa olan dargörüşlü hər nəyi yalnız və yalnız milli ülkülərimizə dayanaraq dözümlə seyr etmişik və etməyə də davam edəcəyik. Biz, öz yolumuzdayıq. Türk Ulusumuzun Birliyini, Güneyimizin tam bağımsızlığını, ***"İstiqlalçıyam, Qurtuluşçuyam, bütövçüyəm, Çünki Türkçüyəm"*** devizi altında qulaq sırğası edərək Təbrizdən Ərdəbilə, Ərdəbildən Urmuya, Urmudan Sulduza, Sulduzdan Bakıya və bütün şəhərlərimizə qoşduran amacımızın 20-illyi dəyişməz bir canlı bəlgə kimi ortadadır. Bu 20-illik çabamızda bir

kərə olsun belə, ulusumuzun milli ideyasını gündəlik siyasətlərin ayağına salmamışıq. Güneyimizi farsçı düşmən əlindən qurtara bilməsəkdə, uğrunda canımızı belə, verməkdən çəkinməmişik. İlk günümüzdən bəri, yalnız kağız üzərində olan bir örgüt olmamışıq. Hər zaman milli ideyamızının təməl dəyərlərinin qorucusu olmağı hədəfləmişik. Bu üzdəndir ki, millətimizi, torpağımızı əvəzsiz və qarşılıqsız sevmişik. Və yenə bu üzdəndir ki, Günaztevenin qarşılıqsız mənimsəməyini özümüzün milli borcumuz sanaraq, onun aracılığıyla Azərbaycan Milli Hərəkatına toxunabiləcək hər hansı olumsuzluğu görüncə biganə yanaşa bilməyirik. Bizim üçün, Günaztevedə  açıqlıq küləklərin əsməsi çox sevindiricidir. Bu, bizsiz də ola bilər. Bunun üçün heç də üzülməyəcəyik. Çünki, orada olan bir çox fikirdaşımız vardır. Əhməd bəy, Cavad bəy, Saleh bəylər kimilərə tənqidimiz olsa da, ortaq nöqtələrimizin yüzdə 90-larda bulunması bizim üçün qanıq vericidir. Lakin, qafaları özgəlikdə, duyğuları isə iki yol ayrıcında qalan Azərbaycanlıların Günaztevedə ulusumuza İrançılıq yönü göstərməsindən tədirgin olmamaq mümkün deyildir. Umarıq ki, bir kərə də olsun, bizim qardaşcasına mesajımızı xoşgörüylə alğılayıb, üzərində düşüncə yapılsın.

*Əhməd bəy Obalıya!*

İllərdir ki, bütün çətinliklərə qarşın TV-ni qoruyursunuz. Bu haqda sizi alqışlamaq gərəkir. Kaşki, siçanıın peşində olan bişik misali gecə-gündüz milyardlar doları güdən (üzdəniraq) qəhrəman müddəilər də yüzdələrinin bir neçəsini Vətənin qurtuluşu yolunda qoyma və ikinci TV açmaq cəsarətinə varmış olsaydılar!! Nə yazıq ki, Manqortlaşmış malpərəstlərun damarında dolaşan Türk qanının ləkələnməsini görməkdəyik. Elə buna görə də, bugün yalnız bircə Günaztevemiz vardır. Bu üzdən, Günaztevenin nəsnəl haqqı bütünlüklə onu qurub saxlayan sizlərə aiddir. Buna kimsənin heç quşqusu yoxdur. Amma, sizin amacınızın qutsallığının özlügündə olan günəş kimi parlayan bir ülkünü unutmamalısınız. Sizin idarə etdiyiniz Günaztevenin ən böyük amacının "Azərbaycan Mərkəzki Türkçü Düşüncə Sistemi"nin yaradılmasının olduğu kimsəyə gizli deyildir. Və sözsüz ki, bu düşüncənin isə, ən mızı və gizli düşmənlərinin kimlər olduğu – günümüzün Əraniləri, Kəsrəviləri, Əfşarları- da aydın milliyətçilərimizə bəllidir. Lakin nədənsə, özlərininin içində ki, kimlik böhranına yanıt tapamayan və İrançılıq vurusu içində inləməkdə olan belə şəxslərin Günaztevedə düzənli və bəzəkli mesajları kəsilmək bilməyir. Nədənsə, hələ də gizli və kəsgin İrançı olan Tudəçilər, Liberallar, Fədailər Günaztevenin giriş kodunu əldə edərək ap-açıq fürsətdən yararlanaraq yenidən

örgüdlənmə çabasına əl vururlar. Günaz TV, Türkçülük simvoludursa,***“Elə farsca danışmalıyam ki, türk ləhcəm olmasın”*** İranbaycanlıların orada nə işi var ki!? Adam iki saat boyunca “Keşvəre xeyli mohomme İran,... Keşvəremaan İran, Mərdome İran vb.”(Çox önəmli İran ölkəsi,...Ölkəmiz İran, İran Milləti/xalqı vb.) diyə-diyə, bir kələmə belə Azərbaycan sözünü dilinə gətirməyir. Lakin, seçim olayları olmadan öncə həman adamın uzun danışığında Azərbaycan adı dilindən düşməyirdi. Demək ki, O günnün modeli Azərbaycan, bugünün modeli isə İrandır. Göz görə-görə, Günaztevedən Paniranizm Tudəçiliyinin reklam olunması böyük xətadır. Az qala Azərbaycan Milli Hərəkatının***“Biz, bu şovinist-fondamentalist rejimin iç savaşına qan verməməliyik”*** sözünü düşmən sözü olaraq alqılandıran səxs, sanki bir İran kanalından danışırdı.

Hər fürsətdə dilə gətirdiyimiz diləyimiz, Günaztevenin demokratikləşməsindən yana olsa da, dünyaya açılan Güney Türklüğünün odaqlarindan birinin İrançılara açılmasından üzgün olmamağımız mümkün deyildir. Güney Azərbaycan türklüyünün milli-qurtuluşu uğrunda tam istiqlalçı qurumların “Dildə, Fikirdə, İşdə birliginin və Günaztevenin “Azərbaycan Türk Millətinə” özəl olması diləyilə!

Sayğımla,

Güney azərbaycan Qurtuluş Partiyasının Sözçüsü

Eldar Qaradağlı

2009-06-23